DOI: 10.36719/2663-4619/61/24-26

**Sevda İbrahim qızı Mansurova**
Bakı Slavyan Universiteti
mansurova_sevda@ mail ru

# UŞAQ NEVROZLARI VƏ ONLARIN ƏMƏLƏ GƏLMƏ SƏBƏBLƏRİ

***Açar sözlər**: uşaq, yeniyetmə, ünsiyyət, problem, inkişaf*

## Children's neuroses and their causes

**Summary**

The article is devoted to the causes of neurosis in children. Some researchers note that the cause of neurosis is due to psychological factors. In their opinion, the cause of neuroses is the negative processes that a person faces throughout life.

The article also describes the types of neuroses and their manifestations.Separately, such concepts as: neurasthenia, hysterical neurosis and obsessive-compulsive neurosis were revealed.
***Key words**: child, teenager, communication, problem, development*

Dünya xalqlarının inkişaf tarixinə nəzər salsaq müxtəlif dövrlərdə uşaqlara qarşı münasibət də müxrəlif olmuşdur. Belə ki, müasir dövrdə uşaqlara bir şəxsiyyət kimi baxılır və onlara qarşı münasibətdə bu yanaşma hər sahədə özünü göstərir. Onların həm psixoloji, həm də fiziolojicəhədən sağlamlığı hər bir ailədə əsas diqqət mərkəzində olan amillərdən biridir. Bunun da təmin olunması ilk növbədə məhz ailələrin üzərinə düşür. Uşaqların ailədə sağlam böyümələri onların sağlam ailədə dünyaya gəlmələrindən də bilavasitə asılıdır. Əgər şəxsiyyətin bütün mühüm keyfiyyətləri kifayət qədər ahəngdar inkisaf etmişsə, onlar o qədər də davamlı,müvazinətli olur və onun tamlığını pozmağa yönəlmiş təsirlərə qarşi durmağa qabil olur (1,s.601).

Şəxsiyyətin inkişafında pozuntular qeyri-adekvat davranışlarda, şəxsin fəaliyyətində mənfi xarakter əlamətlərini əks etdirəcək davranışlara sövq edən motivlər pilləsinin sırasının pozulmasında, şəxsiyyətlərarası münasibətlərdə və başqa fəaliyət sahələrində baş verən pozuntularda müşahidə edilir (2,s.211). Bu baxımdan uşağı bir şəxsiyyət kimi yetişdirən zaman bir sıra məqamlar diqqətə alınmalıdır.

Ümumiyyətlə XX əsrdən etibarən həm yaşlı insanlarda, həm də uşaqlarda nevrozların sayının artmasını müşahidə edirik. Bu da məlumdur ki, uşaqlarda əmələ gələn nevrozların vaxtında qarşısını almadıqda gələcəkdə, onun həyatının sonrakı dövrlərində onlar üçün böyük fəsadlar törədəcəkdir. Eyni zamanda o,bütün həyatı boyu həm özü, həm də əhatəsindəki insanlar üçün ciddi cətinliklər yaradaçaqdır.Bu baxımdan valideyinlər, tərbiyəçilər və müəllimlər uşaq nevrozlarının əmələ gəlməsi səbəblərini bilməli və belə uşaqların necə tərbiyə edilməsi məsələlərini son dərəcədə ciddiyə almalıdırlar. Uşaq dunyaya gətirən valideyinlər bu problemlə üzləşməmələri üçün erkən yaşlardan etibarən uşaqlarla elə davranmalıdırlar ki, onlarda nevrozlar ümumiyyətlə əmələ gəlməsin. Gəlin “nevroz nədir və bunun əmələ gəlmə səbəbləri hansılardır” fikrinə bir qədər açıqlıq gətirək .

Mahiyyətcə-nevrozlar sinir-psixi pozuntuların əsas formalarından biri hesab edilir. Tədqiqatçılar nevrozların əmələ gəlməsi səbəblərini insanın əhəmiyyətli həyatı münasibətlərinin pozulmasında görürlər. Məhz bu həyati munasibətlərin pozulması nevrotik konfliktlər əmələ gətirir ki, bu da nevrozların əmələ gəlməsinə gətirib çıxarır. Qeyd edə bilərik ki, adətən, nevrozlar zamanı baş beyində üzvü dəyişikliklər olmur.

Nevrozlar nevrasteniya, isterik nevroz və sayrışan nevroz vəziyyətləri kmi formalarda təzahür edir.

Nevrasteniy fiziki cəhətdən əldən düşmə ilə müşayət olunur və yüksək qıcıqlanma, yorğunluq, kövrəklik, əhval-ruhiyyənin aşağı düşməsi ilə səciyyələnən formadır. Nevrozların isterik formaları əksər hallarda yalançı xəstəliklərlə məsələn ifliçlər, ürəkkeçmələri, kəkələmə, hərəkətlərin koordinasiyasının pozulması və s.kimi hallarla müşayət edilir. Nevrozların sayrışan hallar forması isə insanın özündən asılı olmayaraq şüurunda qeyri- ixtiyarı əmələ gələn, onu müəyyən hərəkətlər etməyə meyilləndirən təhrilkər nəticəsində əmələ gəlir.

Ümumiyyətlə götürsək nevrozlar problemini araşdıran psixoloqlar və psixiatorlar onların əmələ gəlməsinin ilkin səbəblərini uşaqlıq dövründə uşaqlara qarşı münasibətin düzgün qurulmamasından asılı olduğunu qeyd edirlər. Bu istiqamətdə araşdırmalar ən çox neofreydizm məktəbinin nümayəndələri K.Xorni, E. Fromm, A.Adler, Q.Sallivan tərəfindən aparılmışdır. Alimlərin araşdırmalarına əsasən nevrozların aradan qaldirilmasının ən önəmli üsulu psixoterapiya hesab edilir.

Bir cox tədqiqatçılar nevrozların əmələ gəlməsi səbəblərini araşdıraraq bunun səbəbinin psixolojı amillərdənqaynaqlandığını qeyd edirlər. Onların qənaətinə görə nevrozları yaradan səbəb insanların həyatda rastlaşdıqları mənfi təəsüratlardır. Lakin qeyd etmək lazımdır ki, insan həyatını mənfi təəssüratlarsız təsəvvür etmək də mümkün deyil. Bu da bir həqiqətdir ki, insanların bəzilərində mənfi təəssüratlar nevroz əmələ gətirdiyi halda bəzilərində isə əmələ gətirmir.Buradan da belə bir nəticə çıxara bilərik ki, bu hal subyektiv amillərlə şərtlənir və mənfi təəssüratların məhz hansı insanlara təsir göstərməsi böyük əhəmiyyət kəsb edir. Subyektiv amil dedikdə biz insanın fərdi-psixolojı xüsusiyyətlərini nəzərdə tuturuq. Belə subyektiv amillər ontogenetik inkişaf prosesində nəzərə alınmadıqda və təbii proseslərin qarşısının alınmasına cəhd edildikdə uşaqlarda nevrozların əmələ gəlməsi ehtimalı artır. Məlum olduğu kimi temperament anadangəlmə və fərdi prosesdir və onu boğmaq, dəyişdirməyə cəhd göstərmək uşağın öz temperamentinin tipinə yəni təbii davranışına uyğun yaşamasına əngəl törədir.

Bildiyimiz kimi temperament fərdi-psixoloji prosesdir və bu proses demək olar ki, dəyişməz olaraq insanı bütün həyatı boyu müşayət edir. Hər bir uşaq anadan olarkən müəyyən temperament tipi ilə doğulur və öz tipinə müvafiq olaraq da təbii olaraq da müvafiq davranışa malik olur. Temperament ekstremal şəraitdə daha parlaq özünü göstərir. Belə ki,insan hər hansı bir təhlükə ilə rastlaşdıqda, məqsədinə nail olmağa səylər göstərəndə, onun üçün dəyərli olan kimisə itirdikdə və s. kimi ekstremal şəraitlərdə insan öz temperament tipinə uyğun olaraq reaksiya verir. Bu kimi hallarda insan öz temperamentinin tipinə müvafiq hərəkət edərsə çətinliklərin öhtəsindən də daha rahat və asanlıqla gəlmiş olar.

Lakin bəzi hallar da baş verə bilər ki, insan öz temperamentinin tipinə zidd getməli olar və bu zaman isə o, bir növ öz təbiətinin əksinə gedir, onda temperamentinin tipinə uyğun olmayan xarakter əlamətləri formalaşır. Xarakter əlamətləri temperament tipinə uyğun formalaşsa da mühit, əhatəsində olduğu aləm uşağın xarakterinə təsir göstərir və müvafiq olaraq dəyişdirir. Uşağın xarakteri özünün təbii əsası olan temperamentdən nə qədər çox yayınarsa, kənara çıxırsa temperament xarakteri bir o qədər sıxmış olur. Temperamenti "basdırılmış" uşaq özünə inamını itirir, onda qorxaqlıq, həyəcanlılıqq, asılılıq və s. kimi xarakret əlamətləri formalaşmağa başlayır.

Nevrozun formalarından danışarkən qeyd edə bilərik ki, nevrasteniya nevroz formalarından biridir vəbu zamanı qorxaqlıq, özünəinamsızlıq uşağın fəallığına təsir göstərir.Bu zaman uşaq daha tez yorulur və heç nəyə təşəbbüs göstərmir. Bu yorğunluq və laqeyidlik onun bütün fiziki və psixi sferasında büruzə verir. Belə uşaqlar çətinliklərdən qorxur, özünə inamı olmur və cətinliklərin öhdəsindən gəlməyə cəhd göstərmir. Məlum olduğu kimi adətən, belə uşaqları valideyinlər olduğu kimi qəbul etmək istəmir, təlimdə geri qalmaqlarını qəbul edə bilmir, onların qarşısında yüksək tələblər qoyurlar. Belə olan halda uşaqlar əvvəla valideyinlərin köməyi ilə oxuyur, verilən tapşırıqları yerinə yetirirlər. Dərsdə isə onların göstəriciləri aşagı olur, digər yaşıdlarından nəticələri fərqlənir və bu hal da təbii ki, həm həmin şagirdə, həm də onunla sinif yoldaşları arasındakı münasibətlərə təsir edir. Bu hal aydın məsələdir ki, dərsdən sonra da davam edir. Belə ki, dərsdən evə gələndən sonra uşaq valideyinlərinin tənəsinə, iradlarina tuş gəlir, danlanır və onların təsiri altında dərsləri ilə məşğul olmağa məcbur olur. Lakin bütün bunlar heç bir nəticə vermir. Əslində isə məsələ necədir?

Qeyd etməliyik ki, bu uşaqlar öz uğurlarına inanmırlar, onlarda özünəinam yoxdur, onlar qərarsızdırlar, və onlarda uğursuzluq motivi üstünlük təşkil edir. Onlar hər işdə özlərini gücsüz, qabiliyyətsiz, bacarıqsız hesab edir, digər uşaqları isə əksinə özlərindən daha güclü qəbul edirlər. Belə uşaqlarda mübarizlik, özünümüdafiə zəifdir və onlar da bunun fərqindədirlər. Belə olan halda onlar bununla barışmaq istəmir və özlərinə qapanırlar. Qzünə qapanma halı isə belə uşaqlarda müxtəlif cür özünü göstərir.

Nevrostenik uşaqlar da təbii ki, digər uşaqlar kimi sosial əhatəsində sosialhəyatına davam etdirir. Bu zaman onlar da mühitə, şəraitə uyğunlaşmalıdır. Belə uşaqların uyğunlaşması isə digər uşaqlardan fərqlənir. Nevrostenik uşaqlar həyatı ilə sanki barışır və təslim olurlar. Yəni, onlar hec kimə "toxunmur" və kiminsə də onlarla işi olmaması üçün sanki özlərini xəstə kimi qələmə verirlər. Bu davranış tərzi onlara bir növ kömək olur. Belə ki, ətrafdakılar onlara mərhəmətlə yanaşır, köməklik göstərməyə can atırlar. Bəzən isə ətrafdakıların onlara sanki yazıxları gəlir və demək olar ki onlardan digərləri ilə müqayisədə hec nə tələb etmirlər. Amma bu o demək deyil ki, belə yaşam tərzi, bu hal, ətrafdakıların onlara bü cür münasibəti onların ürəyincədir. Bu hec də belə deyil. Daxili aləmlərində isə onlar tamamilə fərqli düşünürlər. Sanki əlacsız şəkildə davranışları hec də onları sevindirmir.

Uşaqlarda nevrasteniyanın olması əsasən ətrafdakıların tələblərinə tabe olmaq yolu ilə uyğunlaşmaq, davranışda və emosiyalarda qeyri-sabitlik, ziddiyyətsizlik, kontraslıq, psixolojı müdafiədən istifadə kimispesifik əlamətlərə görə müəyyənləşdirilir.

Ətrafdakıların tələblərinə tabe olmaq yolu ilə uyğunlaşmaq dedikdə bu zaman nevrasteniyalı uşaqların özlərini passiv, qeyri-təşəbbüskar apardıqları üçün ətrafdakılarda özlərinə qarşı mərhəmət hissini

yaratdıqlarının şahidi oluruq. Hamı onlara güzəşt edir və onların qarşısında yüksək tələblər qoyulmur. Onlar bu yolla uyğunlaşırlar və onlarla demək olar ki, hec kimin "işi" olmur.

Davranışda və emosiyalarda qeyri-sabitliklәbağlı onu demək olar ki, belə uşaqlar ətrafdakıların tələbləri ilə sanki razılaşsalar da, daxildə buna qarşı onlarda etiraz yaranır. Bunun da nəticəsindəonlarda daxili konfliktlərin yaranması başlayır. Belə daxili münaqişələr nevrasteniyalı uşaqların davranışında emosiyalarında ikiləşmə əmələ gətirir. Belə ki, onlar bir tərəfdən özlərinə inanmadiqları üçün nəyi isə edə bilmədiklərini qeyd edirlər, digər tərəfdən isə onlarda buna qarşı bir etiraz yaranır.Onlar nəyi isə bacarmasalar da bununla barıçmaq istəmirlər və buna öz etirazlarını bildirirlər. Butun bunlar isə onlarin davranışında, emosiyalarinda kontrastlıq, ziddiyyət yaradır. Deməli, uşaqlar əlacsızlıqdan öz istəklərindən, iddialarından imtina edirlər, amma bu imtina ilə hec cür razılaşa bilmirlər. Məhz bu faktın mövcudluğu ziddiyyət yaradır. Məcburən imtina etməli olduqları nələrsə onları sakit buraxmır və bu da onlara mənəvi narahatlıq verir. Bunlar isə təbii ki, uşaqların davranışına təsir göstərir. Digərlərinin nəzərində hər zaman sakit və zəif görünən uşaq sanki bir anda dəyişir, gözlənilməz qəhrəmanlıqlar etməyə cəhd edir. Ümimiyyətlə belə uşaqlar bəzi hallarda səbəbsiz yerə qışqırır, dava salırlar, yeməkdən imtina edir, iştahsız olur, tez torulur və halsız olurlar.

Psixolojı müdafiədən istifadə isə nevrastenik uşaqlara ətrafdakıların mərhəmətli münasibəti, hər şeydə onlara qarşı güzəştli münasibətin olması onlarda yazıqlıq kompleksinin yaranmasıdır. Bu da bir növ psixoloji müdafiə rolunda çıxış edir. Onların davranışının əsas motivi sanki "mən xəstəyəm, bacarmıram mənə toxunmayın" kimi cıxış edir.

Nevrozun digər bir forması olan sayrışan nevroz vəziyyətlərindəndanışarkən qeyd edə bilərik ki, nevrozların bu forması insanın özundən asılı olmayaraq şüurunda qeyri- ixtiyarı əmələ gələn, onu müəyyən hərəkətlər etməyə meyilləndirən təhrilkər nəticəsində əmələ gəlir. İnsan nə qədər çalışsa da belə sayrışan fikirlərdən uzaqlaşa bilmir və sanki bu fikirlərin əsirinə çevrilir. Bu hal da müxtəlif cür təzahür etməyə başlayır. Belə ki, bu hal bəzən fikir olaraq beyində qalır, bəzən də müəyyən ritual hərəkətlər kimi özünü göstərir. İnsanın özündə hər hansı bir xəstəliyin olmasını deməsi, əllərini dəfəflərlə sabunla yuması, təmizliklə bağlı ritual hərəkətləri icra etmək və s. belə hallara misal ola bilər.

Sayrışan nevroz vəziyyətləri zamanı hər şey qorxulardan, həyəcanlılıqdan, vasvasılıqdan, bədgümanlıqdan, qətiyyəsizlikdən yaranır. Belə problemdən əziyyət şəkən uşaqlarda özünü müdafiə instinkti güclənir və onlarda özünə inamsızlıq hissigüclü olur. Uşağın hissləri həmişə öz məzmununa görə ona müsbət təsir göstərmir (4, s. 287). Sağlamlıqları ilə bağlı düşüncələr, rastlaşa biləcəkləri təhlükələrin düşüncəsi, ümumiyyətlə bütün qorxuları ilə bağlı düşüncələr uşağı əldən salır, ona rahatlıq vermir. Bir coxlarımız yəqin ki, evdən cıxarkən dəfələrlə evə qayıdıb nəyi isə kontrol edən, qapını bağlayıb, bağlamadığını yoxlayan, nəqliyyatdan hədsiz qorxan və s. bu kimi insanlarla rastlaşmışıq. Belə hallar məhz sayrışan nevroz vəziyyətindən əziyyət çəkən insanlarda təzahür edir.Sayrışan nevrozların mexanizmləri dərk olunmayan sferada gizlənmişdir ki, bu da insanın hədsiz özünü müdafiəsi cəhdləri ilə baglıdır.Zəhlətökən ideya şüur tərəfindən iradi güclə yerindən tərpədilməsi mümkün olmayan, insanın ondan azad ola bilməsi üçün cox güclü iradi səy tələb edən perseveriyasıdır (5,s.127).

Uşaqlarda isə sayrışan nevroz vəziyyətləri adətən, 7 yaşından əmələ gəlir. Nadir hallarda isə bu problemin daha erkən yaşlarda da başlamasını görə bilərik. Belə uşaqlar verilən tapşırıqları dəqiqliklə yerinə yetirməyə çalışırlar ki, bu da onların tənbehdən qorxmaları və sosil qınağa tuş gəlməmələri ilə müşayiət olunur.

Sarışan nevroz vəziyyəti halında icra olunan ritual hərəkətlər bir növ uşağı sakitləşdirir və sanki belə davranmaqla onlar öz qorxuları ilə mübarizə aparır. Belə hallar təsad edilən uşaqlar valideyinləri tərəfindən daima diqqət altında saxlanılmalı, onlara bu vərdişləri dayandırmaq kimi basqı deyil problemin yaranma səbəbini müəyyənləşdirib və nəticəni aradan qaldırmaq istiqamətində yardım göstərilməlidir.

## Ədəbiyyat

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə Psixologiya. Bakı, "Çinar-çap" 2002, 620s.
2. Mirələm Vəliyev. Azər Mustafayev. İnkişaf və yaş psixologiyası, Bakı, "Elm" -2013, 297s.
3. A.O.Mehrabov, E.Bəylərov. Şagird intellektinin inkişafı, Bakı, "Adiloğlu" 2006, 192s.
4. Əmrahlı L.Ş. Rzayeva N.T. Uşaq psixologiyası. Bakı, "Nurlan" 2015, 344s.
5. Limunət Əmrahlı. Koqnitiv psixologiya. Bakı, MM-S 2018,338s.
6. Muxtar Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, "Adiloğlu" 2003, 282s.

**Rəyçi: dos. G.Həsənova**

Göndərilib: 05.12.2020 Qəbul edilib: 07.12.2020